AZƏRBAYCAN www.azerbaijan-news.az

# "Heydər Əliyev irsi və multikultural dəyərlər" konfransının iştirakçıları ulu öndərin məzarını ziyarət ediblər

Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə keçirilən "Heydər Əliyev irsi və multikultural dəyərlər" mövzusunda konfransın iştirakçıları mayın 7-də Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyublar.

Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad olunub, məzarı üzərinə gül dəstələri düzülüb.

*AZƏRTAC*



